Ay-162.47
ł.77

MƏSUDƏ İSLAMZADƏ

# AZƏRBAYCAN "YENİ NƏSR"inin DİLİ VƏ ÜSLUBU

Bakı 2008

Ш-V63 ЧЛ
İ-77

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NƏSİMİ adına DİLÇİLİK İNSTİTUTU

MƏSUDƏ İSLAMZADƏ

# AZƏRBAYCAN «YENİ NƏSR»inin DİLİ VƏ ÜSLUBU

*(Anar, Elçin, Ə.Əylisli və S.Azərinin nəsr əsərləri əsasında)*

*Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutu Elmi Şurasının 16 may 2008-ci il tarixli iclasının qərarı ilə çap olunur*

Azərbaycan MEA Nəsimi adına Dilçilik İnstitutunun kitabxanası 42463
İnv. №

BAKI–2008

ELMİ REDAKTORLAR: Ağamusa Axundov
*akademik*

Müseyib Məmmədov
*filologiya elmləri doktoru, professor*

RƏYÇİLƏR: Qəzənfər Kazımov
*filologiya elmləri doktoru, professor*

Qulu Məhərrəmli
*filologiya elmləri doktoru, professor*

KOMPÜTER DİZAYNERİ: *Sevil İbrahimqızı*

MƏSUDƏ İSLAM qızı İSLAMZADƏ. AZƏRBAYCAN «YENİ NƏSR»inin DİLİ VƏ ÜSLUBU *(Anar, Elçin, Ə.Əylisli və S.Azərinin nəsr əsərləri əsasında).* Bakı, «ÇAŞIOĞLU» Nəşriyyatı, 2008, 240 səh.

*Kitabda yazıçı üslubu və bədii mətn, həmçinin bu əsasda dilimizin inkişaf qanunauyğunluğundan, estetik-poetik göstəricilərindən, təsvir və ifadə zənginliyindən bəhs olunur.*

*Kitab filoloqlar, dilçilər, şair və yazıçılar, eyni zamanda geniş oxucu kütləsi üçün nəzərdə tutulub.*

4602010000-490 / 082-08 Qrifli nəşr

*©Məsudə İslamzadə 2008*



## NƏSR POETİKASININ ÖYRƏNİLMƏSİNƏ DAİR

Azərbaycan «yeni nəsr»i adı ilə tanınmış ədəbi fenomenin dil və üslub baxımından sistemli şəkildə öyrənilməsi böyük maraq doğurur. Azərbaycan ədəbiyyatşünaslığında bir sıra tədqiqat əsərləri ilə yeri və mövqeyi müəyyənləşdirilən «yeni nəsr»in hansı səviyyələrdə (təbiidir ki, dil səviyyələri nəzərdə tutulur) orijinal formada özünütəsdiqinin dilçi-tədqiqatçı tərəfindən araşdırılması təqdirəlayiqdir. Bu mənada Məsudə İslamzadənin «Azərbaycan «yeni nəsr»inin dili və üslubu» adlı kitabı həmin dövr nəsrinin poetikasını sistemli şəkildə izləməyə cəhd göstərən ilkin monoqrafiya kimi diqqəti cəlb edir.

Müəllif monoqrafiyada «yeni nəsr»in dilindəki bədii təsvir və ifadə vasitələrini – trop növlərini; işlənmə dairəsinə görə fərqlənən söz laylarını; sözün mənşə məsələsi ilə bağlı yenilikləri; bədii dilin frazeoloji sistemini; nəsrin poetik və mətni sintaksisinin əsas xüsusiyyətlərini nəzərdən keçirmiş, bədii dilin tədqiqinə bir növ kompleks sənətkarlıq və ədəbi dilin inkişafı baxımından yanaşmışdır. Odur ki, həm mövzu, həm də araşdırmanın istiqamətlərinə görə əsər aktual və faydalıdır.

Kitabın birinci fəsli **«Nəsr əsərlərində bədii təsvir və ifadə vasitələri»** adlanır. Bu fəslin birinci bölməsində məcaz növləri – metafora, metonimiya, sinekdoxa, perifraz, epitet və müqayisələr nəzərdən keçirilmişdir. İkinci bölmə nəsr dilində daha çox üslubi funksiya daşıyan sinonimlərin, antonimlərin; üçüncü hissə frazeoloji vahidlərin və dördüncü bölüm isə atalar sözlərinin tədqiqinə həsr edilmişdir.

Əsərin təqdirəlayiq cəhəti odur ki, dil və poetika, eyni zamanda bədii mətn üçün səciyyəvi olan funksional-məzmun və struktur-forma elementləri kimi məsələlərin izahında hər bir yazıçının nəsr dili eyni nisbətdə öyrənilmişdir. İkinci cəhət isə bundan ibarətdir ki, qeyd etdiyimiz dörd yazıçının dilinin xarakterik əlamətlərinin tədqiqinə, üzə çıxarılmasına diqqət yetirilmiş və onların üslubunu fərqləndirən orijinal nitq elementləri göstərilmişdir. Və digər tərəfdən, trop növləri araşdırılarkən, ümumdil vasitələri ilə yanaşı, yazıçıların öz qələminə məxsus fərdi-üslubi vasitələr də (epitetlər, metaforalar, müqayisələr və s.) seçilmişdir. Sinonim və antonimlərin obraz nitqinin zənginləşdirilməsində, fikrin emosional-estetik cəhətdən keyfiyyətli ifadəsində rolu və üslubi imkanları araşdırılmış, frazeoloji vahidlər, atalar sözləri və məsəllər də bu istiqamətdə işıqlandırılmışdır.

«**Nəsr əsərlərinin dilində leksik laylar**» adlı ikinci fəsildə ümumən dilin əsas layları olan və bədii mətndə müxtəlif üslubi funksiyalara malik xalq danışıq dili sözləri, dialektizmlər, arxaizm və tarixizmlər, fərdi-üslubi neologizmlərlə yanaşı, alınma sözlər, onomastik leksika ilə bağlı nəzəri cəlb edən ən mühüm məsələlər də tədqiq olunmuşdur. «Xalq danışıq dili sözləri» bölməsində ekspressiv-emosional, ekspressiv-qiymətverici və familyar söz qruplarına daxil olan alqışlar, qarğışlar, müraciət bildirən söz və ifadələr əhatə edilmişdir. Bu silsilədən olan söz və ifadələr içərisində yazıçıların istifadə fərdiliyi araşdırılmışdır. Əsərdə verilmiş nümunələrdən aydın olur ki, dialektizmlər əsasən yazıçının doğulduğu, yaşadığı mühitlə bağlıdır, bədii dildə daha çox tipikləşdirmə vasitəsi kimi seçilir. Müəllif müəyyənləşdirmişdir ki, Elçinin dilində Bakı və Qarabağ dialektlərinə məxsus xüsusiyyətlər, S.Azəridə isə Qazax dialekt nümunələri üstündür. Fərdi-üslubi neologizmlər sahəsində Anarın nəsr dili nəzəri daha çox cəlb edir. Anarda yeni söz yaradıcılığına meyil daha güclüdür. Arxaizmlər Elçinin «Mahmud və Məryəm» romanında üslubi keyfiyyətlər qazanır.



Dilimizin lüğət tərkibinin 40 faizdən artığı alınma sözlərdən ibarətdir. Tədqiqat obyekti olan yazıçıların nəsr dilində alınmalar ana dilinin milli sözlərindən heç də az deyil. Müəllif bütün bu qədim və bir növ artıq çoxdan mənimsənilmiş alınmalardan deyil, bədii dildə tarixi mövzularla bağlı müəyyən dərəcə yeni görünən, əsərlərin məzmunu ilə bağlı tipik alınmalardan danışmışdır. Bu hal ən çox yenidən işlənmiş ərəb, fars söz və ifadələrinə aiddir. Rus və Avropa xalqlarının dillərindən alınmalar elmi-mədəni tərəqqi ilə bağlı daha çox keçən əsrin 70-80-ci illərindən dilimizdə intensivləşmişdir. Kitabda son zamanlar dilimizdə işlədilməyə başlayan Türkiyə türkcəsi sözlərinə də müəyyən yer verilmişdir ki, bunlar daha çox ötən əsrin 90-cı illər nəsrinin dil materiallarına daxildir.

Bu fəslin son bölməsi nəsr dilinin onomastik leksikası - toponim və antroponimlərin bədii dildə rolu məsələsinə həsr olunmuşdur. Müəllif bu hissədə real toponim və antroponimlərlə yanaşı, obrazların səciyyəsinə müvafiq düzəldilmiş satirik adlardan da ətraflı danışmışdır. Bu cəhətdən Anarın nəsr dili, xüsusən «Mola Nəsrəddin» - 66» hekayələr kitabı müəllifə geniş və zəngin faktlar verir.

Üçüncü fəsil «**Nəsr dilinin poetik və sintaktik-üslubi vasitələri**» adlanır. Müəllif yazır: «Poetik nəsrin dili məcazlar sistemindən, sözün semantik strukturundan - antonim, sinonim, çoxmənalı sözlərdən; frazeoloji ifadələrdən, atalar söz-

lərindən istifadə olunması ilə yanaşı; ritmik-melodik vasitələr – intonasiya, ritm, fasilə, təkrarlar; sintaktik-üslubi fiqurlar – inversiya, parselyasiya; cümlənin məna növləri - ritorik suallar, nida cümləsi, həmcins üzvlü cümlələr və hətta müxtəlif quruluşlu konstruksiyaların işlənmə məqamları ilə müəyyənləşir». Elə buna görə də müəllif bu fəsildə qeyd etdiyi poetik və sintaktik-üslubi vasitələrin tədqiqi ilə məşğul olmuşdur. Əsərlərin dilinə linqvistik poetikanın bir qolu olan poetik sintaksis baxımından yanaşaraq, A.Axundov, T.Hacıyev, M.Adilov, M.Məmmədov, Q.Kazımov, F.Ağayeva, K.Vəliyev, K.Abdullayev kimi alimlərin tədqiqatlarına əsaslanmışdır.

M.İslamzadə mətnin poetik intonasiyasına xüsusi diqqət yetirmiş və yazmışdır: «...qeyd etməliyik ki, nəsr dilini nəzərdən keçirdiyimiz Anar, Elçin, Ə.Əylisli və S.Azəri kimi yazıçılarımız 30-cu illərin qrammatik normalarına söykənən köhnə təsvir üsulundan imtina edərək, təfərrüata varmadan nəsrlə nəzmin sintezindən ibarət yeni poetik nəsr dili yaratdılar». Mətnin poetik intonasiyası sahəsində xüsusi araşdırma aparan müəllif bu qənaətə gəlir ki, sintaktik vahidlər məhz intonasiya vasitəsi ilə cümləyə, cümlələr isə intonasiya bütövlüyü nəticəsində bədii mətnə çevrilir. Sintaqmalar və sintaktik konstruksiyalar bir-biri ilə birləşərək, daha böyük sintaktik vahidlərin - sintaktik bütövlərin, nəhayət, mətnin intonasiyasını bütövləşdirir. Odur ki nitqin ritmik-melodik axınını tənzimləyən əsas vasitə kimi fasilənin roluna ayrıca diqqət yetirilir. Müəllif müəyyənləşdirə bilmişdir ki, Anarın nəsr dilinə lirik bir intonasiya hakimdir. Ə.Əylislinin nəsr dili ənənəvi nəsr dilinə yaxın olsa da, ondan fərqlənir. S.Azərinin nəsr dili ənənəvi nəsr dilinə daha yaxındır.



Müəllif nəsr dilinin poetik imkanlarını artıran vasitələrdən biri kimi, təkrarları da ətraflı şəkildə nəzərdən keçirmişdir. Təkrarlar Anar və Ə.Əylislinin nəsr dilində çeviklik yaradan, sintaktik bütövləri əlaqələndirən mühüm vasitə kimi çıxış edir. Bədii mətnin emosional-estetik təsir gücünü artıran cümlə üzvlərinin inversiyası, qoşulma konstruksiyalar – parsellər ətraflı təhlil olunmuşdur. Ritorik sual cümlələri, həmcins üzvlü cümlələr, sadalanan sözlər fikrin daha ətraflı izahı və bədii əsərdə obrazlılıq vasitəsi kimi öyrənilmişdir.

Müəllif bu fəslin sonunda cümlə strukturlarının – sadə və təktərkibli, tabesiz və tabeli mürəkkəb cümlələrin yazıçıların nitqindəki fərdi bədii keyfiyyətlərə və bunların üslubi imkanlarına xüsusi diqqət verir.

**«Mətnin struktur-semantikası»** adlı dördüncü fəsildə isə ayrı-ayrılıqda hər bir yazıçının bədii mətni həm ideya-problematika, həm də struktur-funksiya baxımından hərtərəfli işıqlandırılmışdır.

Müəllifin dili səlis, üslubu aydındır. Əsərdə milli-elmi ədəbiyyatdan geniş istifadə olunub. Əsər Azərbaycan «yeni nəsri»nin dil yeniliklərinin öyrənilməsi və həmin dövr azəri-türk bədii mətninin (nəsr nəzərdə tutulur) struktur-kontekstual və məzmun-funksional cəhətdən araşdırılmasında xüsusi əhəmiyyət kəsb edir.

Biz əminik ki, gənc və istedadlı tədqiqatçılarımızdan olan Məsudə İslamzadənin bu əsəri elmi ictimaiyyət tərəfindən maraqla qarşılanacaqdır.

**M.B.MƏMMƏDOV**
***Əməkdar elm xadimi,***
***filologiya elmləri doktoru,***
***professor***

## GİRİŞ

Müasir Azərbaycan dilində gedən proseslərin izlənilməsi dilçiliyimizin qarşısında duran ən aktual və ümdə vəzifələrdəndir. Bədii əsərlərin milli ədəbi dilin formalaşmasında, inkişafında, lüğət tərkibinin zənginləşməsində, dil normalarının müəyyənləşməsində böyük rolu olduğu üçün bədii dilin funksional-üslubi cəhətlərinin araşdırılmasına həmişə ehtiyac duyulur.

Azərbaycan «yeni nəsr»inin istər problematikası, istərsə də bədii-estetik xüsusiyyətləri barədə ədəbiyyatşünaslığımızda fundamental elmi monoqrafiyalar yazılmışdır. Lakin Azərbaycan dilçiliyində bu ədəbi hərəkatın dili və üslubu, paradoksal da olsa, linqvopoetik təhlilə cəlb olunmamışdır. Halbuki 1960-90-cı illərin nəsri bədii nəsr dilimizin inkişafında xüsusi yer tutur. Bu mənada bədii dil və bədii üslubun 1960-cı illərdə yaranaraq, bəzi keyfiyyətləri ilə əvvəlki nəsrdən fərqlənən Azərbaycan «yeni nəsr»inin dil-üslub proseslərinin öyrənilməsi istiqamətində tədqiqi olduqca əhəmiyyətlidir.

Azərbaycan «yeni nəsr»inin dili və üslubu barəsində A.Axundov[1], T.Hacıyev[2], Q.Kazımov[3], M.Məmmədov[4],

[1] Axundov A.A. Dilin estetikası. Bakı: Yazıçı, 1985; Dil və ədəbiyyat: 2 cilddə, II cild, Bakı: Gənclik, 2003; Dil və üslub məsələləri. Bakı: Gənclik, 1970.

[2] Hacıyev T.İ. Şeirimiz, nəsrimiz, ədəbi dilimiz. Bakı: Yazıçı, 1990; Yazıçı dili və ideya-bədii təhlil. Bakı: Maarif, 1979.

[3] Kazımov Q.Ş. Bədii ədəbiyyatda komizm üsulları. Bakı: Maarif, 1987; Dil, tarix, poeziya. Bakı: Nurlan, 2005.

[4] Məmmədov M.B. Ana dili və nitq mədəniyyəti məsələləri. Bakı: Nurlan, 2004; Filoloji düşüncələr. Bakı: Nurlan, 2005.



Y.Seyidov[1], A.Məmmədov[2], K.Abdullayev[3], N.Cəfərov[4] kimi tədqiqatçılar müxtəlif məqalə və monoqrafiyalar yazmışlar. Lakin hələ ki, ötən əsrin 60-cı illər nəsr dili ayrıca müqayisəli-sistemli araşdırmanın predmeti olmamışdır.

Azərbaycan «yeni nəsr»i ideoloji baxımdan sosializm realizmi sərhədlərindən kənara çıxır və bu nəsrdə janr dəyişikliklərinin nəticəsi kimi geniş, uzun-uzadı təsvir üsulundan imtina olunur. Epopeya-romanın öz yerini kiçik romanlara, povestlərə, sonrakı dövrlərdə isə sənədli nəsrə, hekayələrə və nəhayət 1990-cı illərdə publisistikaya verməsi ilə «yeni nəsr»də epik vüsət, inqilabi romantika pafos reallıq və psixologizmlə əvəzlənir ki, bu da nəsrin poetik funksiyasının, dil-üslub keyfiyyətinin dəyişməsinə şərait yaradır. «Yeni nəsr»in materiallarını konkret yazıçıların nəsr əsərləri əsasında leksik və qrammatik-üslubi cəhətdən səciyyələndirərkən, məcazlar sistemindən bəhrələnmə nəticəsində yeni, orijinal ifadələrin yaranması; leksik-semantik söz qruplarının – antonim və sinonimlərin işlənmə tezliyinin artması; frazeoloji ifadələrin və atalar sözlərinin daha rəngarəng məqamlarda işlənməsi; xalq danışığının canlı dil faktlarından – dialektizmlərdən, fonetik dialektizmlərdən, şivə çalarlı sözlərdən istifadə zamanı əsərlərin dilinin canlılığının, xəlqiliyinin, demokratizminin təmin olunması; tarixi kolorit yaratmaq üçün tarixizmlərə, dilimizin irsi-genetik köklərinə diqqətlə yanaşılması nəticəsində arxaizmlərə, eyni zamanda türk sözlərinə müraciət edilməsi; ərəb, fars, rus dili və bu dil vasitəsi ilə Avropa dillərindən di-

[1] Seyidov Y.M. Yazıçı və dil. Bakı: Yazıçı, 1979.

[2] Məmmədov A. Sözümüz eşidilənədək (Bugünkü nəsrimizin poetik mənzərəsi). Bakı: Yazıçı, 1988.

[3] Abdullayev K.M. Müəllif'əsər, oxucu. Bakı: Yazıçı, 1985.

[4] Cəfərov N. Seçilmiş əsərləri (beş cilddə) II c., Bakı: «Elm», 2007.

limizə daxil olan alınmalara müraciət məqamları; toponimlərin və antroponimlərin üslubi məqsədlərlə işlənməsi kimi əlamətlərlə qarşılaşırıq. «Yeni nəsr»in poetik funksiyasını məcazlar, frazeologizmlər, atalar sözləri və yazıçıların üslublarından irəli gələn fərdi ifadələrlə yanaşı; prosodik vasitələr, əvvələn intonasiya, ritm, fasilə, vurğu; eyni zamanda təkrarlar, ritorik suallar, nida cümlələri, həmcins üzvlü cümlələr; daha sonra isə inversiya, parselyasiya kimi sintaktik-üslubi fiqurlar müəyyənləşdirir. «Yeni nəsr»in dilinin bədii gücünün müxtəlif quruluşlu cümlə tipləri üzrə təyini zamanı, bədii fikrin ifadəsində sadə və mürəkkəb cümlələrin rolunu aydın görmək mümkündür. Belə ki, sadə və mürəkkəb cümlələrin bütün tipləri, semantik çalarları, qarışıq tipli polupredikativ cümlələr, müxtəlif həcmli mürəkkəb sintaktik bütövlərdən istifadə «yeni nəsr»in dilinin bədii keyfiyyətini təmin edir.

Azərbaycan «yeni nəsr»inin dil və üslubunu araşdırmaqda əsas məqsədimiz XX əsrin ikinci yarısında Azərbaycan nəsrində gedən dil-üslub proseslərini izləmək, geniş götürsək, həmin dövr azəri-türk bədii mətninin konteksual-struktur və funksional-semantik təhlilini verməkdən ibarətdir. Dilimizin zəngin üslubi imkanlarından «yeni nəsr» nümayəndələrinin necə istifadə etdiklərini araşdırmaq üçün aşağıdakı vəzifələrin həyata keçirilməsi nəzərdə tutulur: «yeni nəsr»in dil-üslub yeniliklərinin hansı səviyyələrdə müşahidə olunduğunu aydınlaşdırmaq; həmin dövrün nəsr dilinin səciyyəvi cəhətlərini obrazlı təfəkkürə xas olan linqvistik kateqoriyalar və leksik laylar üzrə kompleks şəkildə müəyyənləşdirmək; bədii dil sistemində yazıçı təfəkkürünün məhsulu olaraq, nitq faktı kimi səciyyələndirilən amillərin – fərdi-situativ ifadələrin, sintaktik fiqurların (inversiya, parselyasiya,



ritorik suallar, nida cümlələri, həmcins üzvlü cümlələr) və prosodik vasitələrin (ritm, fasilə, vurğu, təkrarlar) funksional-üslubi imkanlarını araşdırmaq; məcazların (metafora, metonimiya, sinekdoxa, perifraz, bədii müqayisə, epitet) işlənilməsində yazıçıların nitqinə məxsus fərdi və orijinal ifadələri aşkar etmək; yazıçıların sözün semantik imkanlarından (sinonim və antonimlər) istifadə bacarığını və onların hər birinin bu sahədə üslubunu fərdiləşdirən amilləri üzə çıxarmaq; bədii dilin əsas obrazlılıq vasitələrindən olan frazeoloji ifadələrin müəllif təhkiyəsində və surətlərin nitqində işlənmə məqamlarını göstərmək və nəsr əsərlərinin dilini xəlqiləşdirmək üçün işlədilmiş atalar sözlərini mənalarına görə qruplaşdırmaq; nəsr dilində leksik layların (xalq danışıq dili sözləri, dialektizmlər, neologizmlər, arxaizmlər, tarixizmlər, alınma sözlər, onomastik vahidlər) üslubi keyfiyyətlərini izah etmək; nəsr dilinin poetik və sintaktik-üslubi xüsusiyyətlərini açmaq; bədii nəsrin istər dil baxımından, istərsə də ideya-problematika nöqteyi-nəzərindən mikromətn və yaxud sintaktik bütövlərin struktur-semantikası üzrə təhlilini vermək; əsərləri tədqiq olunan yazıçıların bədii nəsr dilinin inkişafında xidmətlərini göstərmək.

Monoqrafiya Azərbaycan «yeni nəsr»inin görkəmli nümayəndələrindən Anar, Elçin, Ə.Əylisli və S.Azərinin nəsr əsərlərinin dil və üslubunun tədqiqinə həsr olunmuşdur. Çünki «yeni nəsr»in ümumi dil-üslub prosesində həmin yazıçıların nəsr əsərlərinin rolu bu və ya digər dərəcədə təkrarsızdır və onların nəsr dili bütövlükdə «yeni nəsr»in dili və üslubu haqqında kifayət qədər düzgün təsəvvür yaradır.

Biz ilk dəfə olaraq onların nəsr əsərləri əsasında «yeni nəsr»in dilində işlədilən orijinal bədii ifadə və təsvir vasitələri

(məcazlar, leksik-semantik söz qrupları); leksik laylar (xalq danışıq dili sözləri, dialektizmlər, neologizmlər, arxaizmlər, tarixizmlər, alınma sözlər, onomastik vahidlər); eyni zamanda ritmik-melodik vasitələr (intonasiya, fasilə, vurğu, təkrarlar); sintaktik-üslubi fiqurlar – inversiya, parselyasiya, ritorik suallar, nida cümlələri, həmcins üzvlü cümlələr, cümlə konstruksiyalarının məna çalarları, üslub xüsusiyyətləri və mikromətnlərin (sintaktik bütövlərin) struktur-semantikasını əsaslı tədqiq etmişik.

Kitab dil və üslub problemləri ilə maraqlanan filoloqlar, dil-ədəbiyyat fakültələrinin müəllim, tələbə və aspirantları üçün nəzərdə tutulub. Əsərlə tanış olanlar bədii dil və bu əsasda azəri-türk nəsrinin poetik-üslubi-funksional imkanları barədə kifayət qədər məlumat alacaq, linqvopoetikaya dair bilik və təsəvvürlərini genişləndirəcəklər.

Ümidvarıq ki, kitab oxucuların diqqətini cəlb edəcəkdir.



# I FƏSİL. NƏSR ƏSƏRLƏRİNDƏ BƏDİİ TƏSVİR VƏ İFADƏ VASİTƏLƏRİ

Azərbaycan bədii dili geniş ifadəlilik imkanına malikdir. Bədii dil öz ifadəliliyini və obrazlılığını xalqın söz xəzinəsindən götürmüşdür. Azərbaycan dilinin zəngin sinonimikası, frazeologiyası və məcazlar sistemi bədii dilin ifadə və təsvir vasitələridir. «Bədii dil, ümumiyyətlə, dildən və hətta ədəbi dildən onunla fərqlənir ki, bədii əsərlərdə dil yalnız öz məntiqi ifadə vasitəsi ilə deyil, eyni zamanda öz şəkli, zahiri təsiri, ahəngdarlığı və musiqisi ilə də yazıçının fikri ifadəsinə dayaq verir[1]». Bədii fikri yüksək sənətkarlıqla qələmə almaq üçün yazıçı ümumxalq dilinə müraciət edir və orada gizlənən söz və ibarələrin leksik mənaları ilə yanaşı, məcazi mənalarından, obrazlılıq keyfiyyələrindən bəhrələnir. «Bədii dil ümumxalq dili əsasında yaranır və özünün bütün qüdrətini, gözəlliyini, bütün qanun-qaydalarını, sözlərini, ibarə və ifadələrini, sərfi xüsusiyyələrini bu mənbədən – canlı dilin tükənməz xəzinəsindən alır[2]».

## 1.1. Məcazlar

A.Axundov «Dilin estetikası» adlı kitabında «ümumxalq dili əsasında formalaşmış ədəbi dilin spesifik üslublarından biri olan bədii dili «yaradıcılıq məhsulu[3]» adlandırır.

[1] Məmməd Arif. Seçilmiş əsərləri: 3 clddə, I c., Bakı: Azərb. SSR EA nəşriyyatı, 1967, s.254.
[2] Məmməd Cəfər. Seçilmiş əsərləri: 3 cilddə, II c., Bakı: Çinar-Çap, 2003, s.28.
[3] Axundov A.A. Dilin estetikası. Bakı: Yazıçı, 1985, s.15.

Yaradıcılıq məhsulu olan bədii dilə obrazlılıq, ekspressivlik bəxş edən vasitələrdən biri də məcazlardır. Məcazlar bədii dildə obrazlı fikrin əsas ifadəçiləridir. Yazıçı üslubunu fərdiləşdirməkdə, bədii əsərə milli kolorit, poetik nitqə təbiilik, əyanilik gətirməkdə məcazların rolu böyükdür.

Nəsr dilində məcazlar sisteminin müxtəlif növlərindən istifadə olunmuşdur. Bu semantik kateqoriyaya mütəmadi müraciət bədii dilin estetik funksiyası ilə bağlıdır. Belə ki, bədii dildə adi sözlər öz kommunikativ mənalarından uzaqlaşaraq, təsvirdəki hadisə və məzmunla əlaqədar məcazlaşır və yeni-yeni kontekstual mənalar qazanır. Sözlərin məcazlaşması nəticəsində isə yüksək emosionallıq və ekspressivlik ifadə edən bədii-poetik mətn meydana çıxır. Fikrimizcə, nəsrin poetikasını yaradan amillərdən biri budur.

1.1.1. **Metafora, metonimiya, sinekdoxa, perifraz.** Nəsr əsərlərinin dilinə yüksək bədii-estetik kamillik verən məcazlar sistemi öz məna və formalarının zənginliyinə görə fərqlənir. Anar, Elçin, Ə.Əylisli, S.Azəri kimi müəlliflər bu rəngarəng sistemdən bəhrələnərək, canlı bədii obrazlar və yaddaqalan lövhələr yaratmışlar. Onların nəsr əsərlərində məcazın bir növü olan metaforalardan yerli-yerində istifadə olunmuşdur.

Metafora nədir? Aristotel özünün məşhur «Poetika» əsərində metaforanın tərifini belə verir: «Metafora qeyri-adi bir ismi ya cinsdən növə, ya növdən cinsə, ya da növdən növə keçirmək və ya bənzətmə yolu ilə məcazlaşdırmaqdır[1]». Metafora yunan sözü (*metafhora*) olub, «mənanın köçürülməsi» deməkdir. Yazıçılar metafora vasitəsi ilə qəhrəmanlarının daxili aləmini, xarakterinin səciyyəsini açır. Bu məcazlar əyani və konkret obraz kimi hadisənin mahiyyətini bənzətmə yolu ilə yığcam və qısa şəkildə ifadə edir.

[1] Aristotel. Poetika. Bakı: Azərnəşr, 1974, s.96.



Metaforalar nəsr dilində aşağıdakı üslubi məqsədlərlə işlədilir:

1) Bədii personajın portretinin və xarakterinin təsvirində metaforalardan istifadə olunur. Nəsr əsərlərində personajı səciyyələndirən metaforalar müqayisədən metaforaya doğru qarşılaşdırma, analogiya vasitəsi ilə formalaşır. Bu ondan irəli gəlir ki, nəsr dilində poeziyadan fərqli olaraq, sözlərdən, onların həm kommunikativ, həm də məcazi mənalarından geninə-boluna istifadə üçün meydan daha genişdir. Yazıçı Anar metoforik obrazı, portreti, təsviri bir neçə cümlədən və hətta cümlələr silsiləsindən ibarət mikromətndə yaradır: «Hər adamın həqiqəti onun içində bağlıdır. Seyf kimi, şkaf kimi. Bu *seyfi,* bu *şkafı* başqası aça bilmir, çünki birinin açarı başqasına düşmür. Hər adam öləndə torpağa onun açarlarını da basdırırlar. Biz öləndə torpağa bizi – heç bir vaxt açılmamış *şkafları* basdıracaqlar» (Anar, c.1, 62). Göstərdiyimiz nümunədə Anar fərdi-metaforik ifadələrlə mücərrəd bir obraz canlandırmışdır.

Anarın «Beşmərtəbəli evin altıncı mərtəbəsi» əsərinin əsas qəhrəmanı Təhminə maraqlı metaforik ifadə ilə xarakterizə olunur: *«Kaman qız!»* Özünə deməmişdi, amma onu gördüyü ilk günlərdən belə adlandırmışdı. Ona görə ki, ucaboylu, arıq idi, uzun ayaqları vardı. Ona görə ki, kaman kimi onu da şaquli təsəvvür etmək olardı. Bəzi qadınları üfüqi təsəvvür edə bilirsən. Amma *Kaman qız* şaquli qadın idi, gözlərini yumsan da, onu yalnız dimdik görəcəksən» (Anar, c.2, 12). Bu nümunədə yazıçı personajın obrazını dırnaq içərisinə salınmış məcazi mənalı sözlə təsvir edir. Sonrakı cümlələrdə isə müqayisə yolu ilə metafora meydana çıxır. «Müasir dilimizdə metaforik mənaların çoxu müqayisə əsa-

sında meydana gəlir[1]». Məhz buna görə də metaforanı «ixtisar edilmiş müqayisə», «gizli müqayisə» də[2] adlandırırlar.

Portretyaratmada metaforikləşmədən istifadə portretin həm daxili aləminin, həm də zahiri görünüşünün daha lakonik, daha obrazlı və daha yığcam şəkildə canlandırılması deməkdir. Anar həmin əsərində başqa bir personajın missiyasını, əsərin qəhrəmanlarının həyatında oynadığı rolu aşağıdakı tərzdə göstərir: «Məhəbbət – iki nəfərin şəxsi işidir, deyirlər ki, üçüncü artıqdır, amma bəzən məhz bu üçüncü gərək olur iki sevişənə – səadətlərinin şahidi kimi. Bu *şahid* güzgü kimi lazımdır onlara – güzgüyə baxıb öz xoşbəxtliklərini görmək üçün. İndi Zaurla Təhminənin belə bir *güzgüsü,* belə bir *şahidi* peyda olmuşdu və adı Mədinə idi...» (Anar, c.2, 269).

Anarın nəsr əsərlərində bədii portret yaradan məcazlar fərdi-üslubi metaforalardır və belə ifadələr yalnız mətn daxilində leksik-semantik mahiyyət qazanır. Fərdi-üslubi metafora yaratma meyli «yeni nəsr»in linqvistik bünövrəsində daha çox müşahidə edilir. Bu prosesi dil baxımından izlədikdə görürük ki, yeni metaforaların əksəriyyətində hər cür standart ifadələrdən, imkan daxilində, imtina olunur və onlar öz orijinallığı ilə fərqlənir.

Ə.Əylislinin «Adamlar və ağaclar» povestinin dilində isə müqayisə abstrakt xarakter alır. Yazıçının metaforanı hansı bənzətməyə əsasən verməsi oxucunun ixtiyarına buraxılır: «Əlmurad dayı arılara bir gülməli ad da qoymuşdu: *«nemes millətı»* və bu sözü kənddə bilməyən adam yox idi.

[1] Verdiyeva Z., Ağayeva F., Adilov M. Azərbaycan dilinin semasiologiyası. Bakı: Maarif, 1979, s.137.

[2] Потебня А.А. Из записок по теории словесности. Харьков., 1905, стр.263.



Yaz vaxtları pətəklərin ağzı açılanda arılar bağlara səpələnirdilər, həyətlərə doluşurdular, çeşməyə əyilən badam ağacının üstünə yığışırdılar: bu arıların əksəriyyəti Əlmurad dayının pətəklərindən idi və buna görə hər yerdə onlara *«Əlmuradın nemesləri»* deyirdilər» (Ə.Əylisli, c.1, 278). Mətndən göründüyü kimi arılar işgüzarlığına, dəqiqliyinə görə almanlarla müqayisə edilmiş və belə bir metaforik ad meydana çıxmışdır: *«nemes millətı», «Əlmuradın nemesləri».*

Anar və Ə.Əylislinin nəsr dilindən götürülmüş nümunələrdən aydın olur ki, fərdi-üslubi metaforalar leksik-semantik cəhətdən kontekstdə, yəni mətn daxilində mövcuddur. Deməli yazıçı üslubunun və nitqinin fərdi keyfiyyətləri dil sistemindən istifadə zamanı orijinal nitq elementlərinin yaranmasında özünü göstərir. Obrazlı təfəkkürün məhsulu olan belə söz və ifadələr, təbii ki, yazıçı üslubunu fərdiləşdirən amillərdəndir.

2) Nəsr əsərlərində təbiət lövhələrinin təsviri zamanı işlədilən metaforalar poetik təsir gücünə malikdir. Təbiətin təsvirində metaforaların iki forması üstündür: insana aid xüsusiyyətin; insana aid hərəkətin təbiət lövhələri üzərinə köçürülməsi yolu ilə yaranan metaforalar.

Təbiət təsviri zamanı insana aid xüsusiyyətin təbiət lövhələri üzərinə köçürülməsi ilə formalaşan metaforik birləşmələrdən istifadə zamanı insanın bədən üzvlərindən biri cansız əşyanın üzərinə köçürülür. Belə metaforalar təbiət hadisələrinin daha canlı şəkildə ifadəsinə səbəb olur. «Bu zaman metaforik birləşmə nisbətən şəxsləndirilir[1]». Ə.Əylislinin, S.Azərinin, bəzi hallarda isə Anarın əsərlərində təbiətin

[1] Budaqova Z.İ. Metafora və müqayisə bədii təsvir vasitəsi kimi / Oktyabr inqilabı və Azərbaycan dilçiliyi məsələləri. Bakı: Elm, 1969, s. 113.

Azərbaycan MEA Nəsimi adına Dilçilik İnstitutunun kitabxanası
İnv. № 4463